**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ**
**YANINDA ELMİN İNKİŞAFI FONDU**

Bakı şəhəri 10 avqust 2020-ci il

## "Türk Dünyası Araşdırmaları" beynəlxalq qrant müsabiqəsinin nəticələri haqqında

## E L A N

Elmin İnkişafı Fondu müxtəlif ölkələrdə fəaliyyət göstərən analoji qurumlarla (fondlar, agentliklər və şuralar ilə) beynəlxalq əlaqələrini genişləndirir və birgə qrant müsabiqələri təşkil edərək keçirir.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu "Türk Dünyası Araşdırmaları" məqsədli beynəlxalq qrant müsabiqəsi elan etmişdir. Müsabiqə çərçivəsində 2 alt-müsabiqənin keçirilməsi nəzərdə tutulmuşdur: 1-ci Azərbaycan-Türkiyə ("AzTürk-1") beynəlxalq qrant müsabiqəsi (Elmin İnkişafı Fondu və Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurası ((Türkiye Bilimsel ve Teknolojik Araştırma Kurumu – TÜBİTAK) tərəfindən birgə təşkil olunmaqla); "Azərbaycan və Türk Dünyası" tədqiqatları üzrə qrant müsabiqəsi (Elmin İnkişafı Fondu tərəfindən təşkil olunmaqla). 1-ci Azərbaycan-Türkiyə ("AzTürk-1") beynəlxalq qrant müsabiqəsinin məqsədi Azərbaycan və Türkiyədən olan alim və tədqiqatçıların təqdim etdiyi birgə elmi-tədqiqat layihələrinin Elmin İnkişafı Fondu və TÜBİTAK-ın birgə qrantları vasitəsilə dəstəklənməsi, bu tədqiqatların iqtisadiyyatda tətbiqinə şərait yaradılması, yeni əməkdaşlıq imkanlarının açılması, elmi təcrübə və bacarıqların mübadiləsi, layihə üzrə qoyulmuş elmi problemlərin həllində onlardan istifadə edilməsidir. "Azərbaycan və Türk Dünyası" tədqiqatları qrant müsabiqəsinin məqsədi isə "Elm haqqında" qanunda (maddə 3) göstərilmiş prioritetlər üzrə təqdim edilən layihələrin, eyni zamanda sosial və tibbi problemlərinin araşdırılmasına dair tədqiqatların maliyyələşdirilməsidir.

Yuxarıda qeyd olunan sənədlər nəzərə alınmaqla, Elmin İnkişafı Fondu Azərbaycan və Türkiyə alimlərindən ibarət müvəqqəti yaradılmış yaradıcı kollektivlərin birgə yerinə yetirilməsi planlaşdırılan və hər iki tərəf üçün aktual olan elmi istiqamətlər üzrə elmi- tədqiqat layihələrini dəstəkləmək, beynəlxalq elmi əməkdaşlıq fəaliyyətini stimullaşdırmaq və müasir elmi problemlərin həlli üçün əlavə yaradıcılıq imkanı yaratmaq məqsədilə, cari müsabiqənin razılaşdırılmış elmi prioritetlərinə uyğun olaraq, Azərbaycan-Türkiyə ("AzTürk-1") birgə beynəlxalq qrant müsabiqəsini 2018-ci il 21 oktyabr tarixində elan etmişdir.

Elmin İnkişafı Fondu 1-ci Azərbaycan-Türkiyə ("AzTürk-1") birgə beynəlxalq qrant müsabiqəsinin (EİF-Turk_Dunyasi-2018-3(33)) nəticələrini

ELAN EDİR:

1. Elmin İnkişafı Fondu Azərbaycan-Türkiyə ("AzTürk-1") birgə beynəlxalq qrant müsabiqəsinin keçirilməsi haqqında qərarını 2018-ci il 21 oktyabr tarixində internet səhifəsində və kütləvi informasiya vasitələrində elan etmişdir. Qrant layihələri 2018-ci il 21 oktyabr – 2019-cu il 29 mart tarixləri arasında müsabiqəyə daxil olmuşdur. Bu müddət ərzində Elmin İnkişafı

Fondunun icraçı direksiyası qrant iddiaçılarına kömək məqsədilə bir neçə məsləhət seminarı təşkil etmiş, telefon və elektron-poçt vasitəsilə olan müraciətlərə cavab vermiş, ortaya çıxan suallara aydınlıq gətirmişdir.

2. Yuxarıda göstərilən müddət ərzində müsabiqəyə Azərbaycan tərəfindən 9 müştərək layihə daxil olmuşdur. Layihələr müsabiqəyə Elmin İnkişafı Fondunun yaratdığı innovativ texnologiya olan "e-QRANT" - "Qrant layihələrinin Elektron İdarəolunması Sistemi" vasitəsilə təqdim edilmişdir.
3. Layihələrin texniki ekspertizası işi təşkil olunmuş, müsabiqə qaydaları və tələblərinə cavab verməyən 1 layihə texniki ekspertiza mərhələsindən keçməmiş, 8 layihə isə elmi ekspertiza mərhələsinə buraxılmışdır. Elmi ekspertiza işinə Elmin İnkişafı Fondunun daimi ekspertləri və müstəqil elmi ekspertlər cəlb olunmuşlar. Eyni zamanda, Türkiye Bilimsel ve Teknolojik Araştırma Kurumu – TÜBİTAKa daxil olmuş layihələrin ekspertizası işi həyata keçirilmişdir.
4. Elmin İnkişafı Fondunun icraçı direksiyası, daimi və müstəqil elmi ekspertlər təqdim olunmuş layihələrin cari müsabiqənin elmi prioritetlərinə uyğunluq dərəcəsini müəyyənləşdirmiş, layihələrin elmi səviyyəsini, onların yerinə yetirilməsi imkanlarını və potensialını, gözlənilən elmi nəticələrini, mümkün tətbiq ehtimalını ekspertiza qaydalarına uyğun olaraq xüsusi sistem üzrə qiymətləndirmiş, həmçinin maliyyələşdirilmənin məqsədəuyğunluğu və həcmi barədə Elmin İnkişafı Fondunun Himayədarlar Şurası üçün rəylər və arayışlar hazırlamışdır.
5. Elmin İnkişafı Fondunun icraçı direksiyasının, daimi və müstəqil elmi ekspertlərin hər bir layihə üzrə hazırladığı və statistik məlumatların daxil olduğu yekun sənədlər toplusuna Elmin İnkişafı Fondunun Himayədarlar Şurası tərəfindən baxılmış, ekspertiza qaydalarına uyğun olaraq layihələrin yekun toplanmış ballara görə sıralanmış siyahısı və maliyyələşdirilmə həcmi barədə tövsiyələr müzakirə olunmuş və yekun qərar qəbul edilmişdir.
6. Azərbaycan-Türkiyə ("AzTürk-1") birgə beynəlxalq qrant müsabiqəsi çərçivəsində tərəflər arasında razılaşdırılmaqla 2 fundamental-tətbiqi xarakterli qalib layihə müəyyənləşdirilmiş (siyahı əlavə olunur) və Elmin İnkişafı Fondunun müvafiq Qərarı ilə təsdiq olunmuşdur.
7. Cari müsabiqə üzrə Azərbaycan tərəfi üçün ümumi maliyyələşdirilmə həcmi 290000 min manat olmuşdur.
8. Bu elan verildikdən sonra müəyyənləşdirilmiş müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası ilə qalib layihənin rəhbəri arasında layihənin yerinə yetirilməsi barədə lazımı sənədlər toplusu hazırlanmaqla müvafiq müqavilə bağlanılacaq, qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçiriləcək və maliyyələşdirilmə həyata keçiriləcəkdir.
9. Elmin İnkişafı Fondu Azərbaycan-Türkiyə ("AzTürk-1") birgə beynəlxalq qrant müsabiqəsinin qaliblərini təbrik edir, müsabiqə iştirakçılarına və müstəqil elmi ekspertlərə minnətdarlığını bildirir.

Əlaqə telefonu: *(012) 489-08-94*
Elektron-poçt ünvanı:
*info@elmfondu.az*
**Elmin İnkişafı Fondunun icraçı direksiyası**